# “Mən uçuram göylərə, ayağımdan yer düşür...”

## Qəşəm Nəcəfzadə



### Avtobus hadisələri

Əyləşdim...
Başımda Avropa,
Ürəyimdə Şərq, altımda avtobus,
Avtobusun altında Rəşid Behbudov küçəsi.
Küçənin altında hamının olan yer...

Adamlara baxırsan hərəsi bir kitab,
Göz,
Gözdə kədər,
Qaş
Qaşda vergül,
Burun
Burunda nida,
Köynəkdə ləkə,
Ayaqqabıya qədər
Səhiflər.
Oxu istədiyin qədər.
Müharibə, sevgi, sosial kitablar
Oturacaqlar rəflər.

Bax o qoca qadına, oğlu şəhid olandan bir səhifəsi qatlanıb,
O səhifədə həyat barmağını saxlayıb,
Barmaqdan qan kimi damcılayır imtiyazlar.

Qulaq as telefonla danışan kişiyə,
rüşvət istəyir, təhlükəsizlikdən gizli
Üç min manata İlyas Əfəndiyevin
“Üç atılan”ı deyir.
guya oxumaq istəyir...

Əllər oturacaqların dəstəyindən yapışıb.
Bax indi mənim əllərim yaşayır nə vaxtsa adam bıçaqlayan
bir əlin qonşuluğunda...

### Uşaq köynəyi

Mən şeirlərimi müharibə uçqunlarının üstünə sərilərək,
Dodaqlarımı beton piltələrin arasından tapılmış uşaq köynəyinə söykəyərək,
Yazıram.
Şeirlərimin hecaları uşaq əynindən yıxılmış damalı köynəklərdi
Münsiflər heç vaxt damalı köynəkləri görə bilmir,
Köynəyin xatirəsinə bax,
Kürəyimdə bir əlçim Günəş şəfəqi vardı
Əvvəl işıqlandırdı uçqunun dərinliklərini
Sonra söndü.

### Boşluq

Əsir küçəmizdə tənə küləyi,
Oğlum, qapımızı cəftələ.
Bura bizə tanış yerlər deyil ki,
Qoy ötüşsün aylar,
Gəlsin həftələr.

Aparıb harda azdırım bu it ağrını,
Yeyir, içir, dəlir körpə bağrımı.
Ayaqlarım uzun yorğanım gödək,
Basır ayağımı üst – üstə sazaq.

Əyri bir sümük ilişib boğazıma,
Əriyirəm ərim- ərim bu sümüyün ucunda.
Göylərin ilgəyidi keçibdi boğazıma,
Sümüyün bir nağlı var padşahın taxt- tacından.

Hələ çox qalıb yurdumuza, qoy yatım,
İşıqlı gündüzlərdə oyatmazlar yatanı.
Şaxtanın od -alovu yandırır sümüyümü,
Günəş batdığı zaman oyadasan atanı.

### Bir Yanvarın şeiri

Döyüşdən ayaqsız qayıdanlara,
Od tutan yağışa, qurd düşən qara.
Yaralı əsgərin son qüvvəsinə,
Bir anda çəkməsi soyuyanlara,
Ağlayır xanımım, çay əvəzinə,
Gətirib qarşıma duz qoyur indi.

Laçın dəhlizində tənginəfəsdi,
Ürəyi döyünür evin içində.
Bir baxmır, beş baxmır laçın tərəfdən,
Gələn buludların yağış köçünə.
Əlləri titrəyir, ayağı donur
Necəsən?- mənə də göz qoyur indi.

Göydən ulduzlar tək səpələnir qar,
Nağıldı, bir ulduz oxuya bilsən.
Ölmərəm, könlümün uçan yerinə,
Bu qışın qarını toxuya bilsəm.
Xanımım çağırır məni küçədən,
Yarımçıq şeirini yaz deyir indi.

Xudayar oxuyur, biz ağlayırıq,
Səsi ürəyimizi dörd yerə bölüb.
Qapımız açılır, qonşumuz deyir:-
Sizin müharibədə kiminiz ölüb?
Nə deyim, nə deyim belə qonşuya,
Qonşunun ovcuna söz qoyur indi.

### Xatirələr başacan, ayrılıqlar dizəcən

Ayaqlarım üşüyür mənə nəsə olacaq,
Xəbərin olacaqmı bunu deyə bilmirəm.
Əllərim üşüsəydi, nə olardı görəsən,
Bir aydı düşünürəm onu deyə bilmirəm.

Hardasa yol qırılır, ayaqlarım donur bax,
Boyum göyə dartılır, addımlarım kiçilir.
Nə qədər yollar var keçirəm ürəyindən,
Di gəl onun üstündən tırtıllı tanklar keçir.

Yağıbdı aramıza qar kimi məsafələr,
Xatirələr başacan, ayrılıqlar dizəcən.
Sübhəcən axır yerə otağımın işığı,
Aşağıda bir sərxoş söyüş söyür sübhəcən.

Kimsə məni dindirir, huşum çıxır başımdan,
Ağlım özün itirir, sirr açılır, sirr düşür.
Məsafələr dartılır, ayaqlarım kiriyir,
Mən uçuram göylərə, ayağımdan yer düşür.

### At haqqında şeir

Ağbulaqlı Tahirin atı
Gecənin birində
Dönüb küləyə,
Getdi ön cəbhəyə...
Keçdi yalın o üzünə
Bir qarın dolusu
ələf yeməyə.

Kimi dedi, atın
Qardaşı varmış təpənin arxasında,
Kimi də dedi,
At doğulduğu kəndi görübmüş
yuxusunda,
Dəlinin biri də sərsəmlədi
Təpənin dalında
Xatirəsi varmış,
Bu gün- sabah qayıdar, qardaş.

At qayıtmadı
yerinə bir şeir qayıtdı...

Tahir yazmışdı o şeiri
Atı haqqında...

İndi kəndimizdə
Tahiri at kimi
Çapır o şeir...

### Son şeir

Bir yerim olsaydı, küsüb gedərdim,
Köpəyoğluyam bir də qayıtsam geri.
Ay, Ay, işığını nərdivan eylə,
Çək məni yanına, ağlat bu yeri.

Bunun çayına da, dənizinə də,
Suyuna, qumuna, pişiyinə də,
Lap məsçidinə də, kilsəsinə də,
İsaya da, Musanın əsasına da
Saqqalısına da, kosasına da,
Əlvida deyibən şüa içində,
Qızdırma içində çıxıb gedirəm,
Amma bir ev var ki, pəncərəsindən,
Xəlvətcə o evə baxıb gedirəm.

Görmək istəmirəm sifətimi də
Şəklimi versələr, cırıb ataram.
Ağrıdır canımı, ev-eşik, yastıq,
Başımı buluda qoyub yataram.

Şeir xasiyyətimi unutdum daha,
Bu gündən qələmi tuturam topa.
Hər şey uydurulub oğul, qız, nəvə,
Hər şey uydurulub ana və ata.

Durub məndən ötrü ağlayan qadın,
Həyatın ən qəddar təşbehi sənsən.
Görən kim uydurub sənin ərinəm,
Görən kim uydurub sən sevgilimsən?

Şeir də yalandı, kağız yanırsa,
Yaddaş pozulursa, səslər sönürsə.
Dünyanın sonuncu adamı gəlib,
Gözün görə-görə birdən ölürsə...

Guya ki, deyirlər oğlumsan mənim,
Nə sənə atayam, nə də qızıma.
Ürəyimdən çıxan bu son şerimi,
Atıram küçədə itin ağzına.